


ABŞ prezidenti Barak Obamanın Keniyada yaşayan ögey qardaşı Malik Obamanın "Həmas"ın maliyyə dəstəkçisi olduğu iddia edilib.

ANS PRESS-in məlumatına görə, Barak Obama adına yaradılan fondun rəhbəri olan və ABŞ prezidentinin 1992-ci ildəki toyunda sağdışlığını edən Malik Obamanın 2010-cu ildə iştirak etdiyi bir konfransda fələstinlilərə məxsus yaylıq taxdığı və İsrail əleyhinə ifadələr işlətdiyi irəli sürülüb.

"Qüds bizimdir, biz gəlirik" - deyə Yəməndəki konfransda ABŞ prezidentinin qardaşı qeyd edib. Malik Obamanın, həmçinin İordaniya çayı ilə Aralıq dənizi arasında qalan torpaqların hamısının fələstinlilərə aid olduğunu ifadə edərək "İsrail yer üzündən silinməlidir" dediyi də iddia edilib.